Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə”nin 4.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Apellyasiya Şurasının Katibliyi aşağıdakı tərkibdə təsdiq edilsin:

Billurə Hacızadə – İnformasiya şöbəsinin İctimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi (rəhbər);

Nigar Hacıyeva – İnsan resursları şöbəsinin Təhsil müəssisələri ilə iş sektorunun baş məsləhətçisi (üzv);

Həcər Hacıyeva – İnformasiya şöbəsinin Vətəndaşların müraciətlərinə baxılması sektorunun aparıcı məsləhətçisi (üzv).

2. “Azərbaycan Respublikası Təhsil Nazirliyi Apellyasiya Şurasının Katibliyinin yaradılması barədə” Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2016-cı il 17 fevral tarixli 87 nömrəli Əmrinin 1-ci bəndi ləğv edilsin.

3. İnformasiya şöbəsi (E.Məmmədov) bu Əmrin nazirliyin internet saytında yerləşdirilməsini və surətinin Nazirliyin aidiyyəti struktur bölmələrinə göndərilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət Apellyasiya Şurasının sədri, nazir müavini F.Qurbanova həvalə edilsin.

Əsas: Azərbaycan Respublikası Təhsil Nazirliyinin Apellyasiya Şurasının sədri, nazir müavini F.Qurbanovun təqdimatı

***Ceyhun BAYRAMOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***3 may 2019-cu il***

***F-237***